❒ ***Prezident İlham Əliyevin ölkənin istənilən bölgəsinə səfəri, sözün həqiqi mənasında, hadisəyə çevrilir. Dövlət başçımızın rayon ictimaiyyətinin nümayəndələri ilə söhbətləri, müxtəlif obyektlərin açılış və ya təməlqoyma mərasimlərində iştirakı, müəyyən aktual məsələlər barədə respublika əhəmiyyətli müşavirələr keçirməsi, xüsusən, səfər etdiyi rayon və ya şəhərin sosial-iqtisadi inkişafını sürətləndirmək məqsədilə imzaladığı sərəncamlar uzun müddət bölgə əhalisinin yadından çıxmır.***

# Balakəndə tərəqqinin əhatə etmədiyi sahə yoxdur



Balakəndə də belə oldu. Rayondakı “ABAD Mərkəz”in açılışında iştirak edən ölkə rəhbərinin sakinlərlə görüşdə səsləndirdiyi fikirlər indi də maraqlı söhbət mövzusu kimi tez-tez yada salınır: “İndi siz yaxşı bilirsiniz ki, biz ölkəmiz üçün ənənəvi olan kənd təsərrüfatı sahələrini bərpa edirik. Bu bölgənin imkanları, iqlim şəraiti və ənənələri nəzərə alınır. Bölgədə çox geniş vüsət alan sahələr fındıqçılıqla, baramaçılıqla, tütünçülüklə bağlıdır. Siz – burada yaşayan insanlar yaxşı görürsünüz ki, son bir-iki il ərzində bu sahədə çox böyük artım var və bu, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına




birbaşa müsbət təsir göstərir. Bir il ərzində Balakən rayonunda 2 min 200 hektarda yeni fındıq bağları salınıb və bağların sahəsi 7 min hektara çatıbdır. Ancaq növbəti illərdə əlavə minimum 3 min hektarda fındıq bağları salınacaq və bütün bunlar dövlət hesabına olan məsələlərdir. Yəni, dövlət lazım olan tingləri gətirir, suvarma işlərini təşkil edir, kəndlilərə şərait yaradır ki, onlar bu ağaclara qulluq edərək öz maddi vəziyyətlərini daha da yaxşılaşdırsınlar və xaricə valyuta gətirən məhsullar çıxara bilsinlər”.

Dövlət başçımızın həmin səfərindən bir neçə gün sonra rayon Mədəniyyət Mərkəzində Prezidentin Balakən səfərinin yekunlarına və kənd təsərrüfatı sahəsində qarşıda duran vəzifələr barədə rayon ictimaiyyətinin müşavirəsi keçirilib. Müşavirədə rayon icra hakimiyyətinin başçısı İslam Rzayev, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ərazidəki icra nümayəndələri, bələdiyyələr, ziyalılar, ictimaiyyətin təmsilçiləriləri iştirak ediblər. İslam Rzayev Prezident İlham Əliyevin Balakəndə 5-ci dəfə, son beş ildə isə 2-ci dəfə olmasını tarixi hadisə adlandırıb. Bildirib ki, son beş ildə ölkə başçısının rayona ikinci dəfə gəlməsi onun balakənlilərə böyük inamı, rayona böyük diqqət və qayğısı, balakənlilərin Prezidentə böyük məhəbbəti hesab olunmalıdır.

Rayon rəhbəri qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 3-də rayona növbəti səfəri əvvəlki gəlişlərindəki kimi uğurlu oldu. Səfər zamanı ölkə başçısı Balakən Su Elektrik Stansiyasının, Bayraq muzeyinin , Balakən-Sarıbulaq-Qabaqçöl-Xalatala avtomobil yolunun və “ABAD Mərkəz”in açılışında iştirak edib və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Prezident görülmüş işləri yüksək qiymətləndirib. Qeyd olunub ki, dövlət rəhbərinin uğurlu daxili siyasətinin bariz nümunəsi özünü respublikanın bütün regionlarının, o cümlədən, Balakən rayonunun da hərtərəfli inkişafında göstərməkdədir. Balakənlilər əmindirlər ki, ölkədə həyata keçirilən düzgün daxili və xarici siyasətin ali məqsədi – ana xətti Azərbaycanın daha gözəl, daha qüdrətli olmasına, insanlarımızın isə xoşbəxt və firavan yaşamasına xidmət edir.

Rayon icra hakimiyyətindən bildirdilər ki, təsərrüfatlarda qarğıdalı yığımına başlanılıb. İlk olaraq Qabaqçöl ərazisindəki təsərrüfatlarda yığım aparılır. Bu il rayonda 6 min 885 hektar sahədə qarğıdalı əkilib. Göstərilən yüksək aqrotexniki qulluq nəticəsində sahələrdə bol məhsul yetişdirilib. Mütəxəssislərin rəyinə görə, hər hektardan orta hesabla 62 sentner məhsul gözlənilir. Balakənli fermerlər cari mövsümdə 40 min tondan çox dən qarğıdalı istehsal etməyi qarşılarına məqsəd qoyublar.

Bu xəbəri digər məlumatlardan önə çəkməyimizin əsas səbəbi də məhz bu “40 min tondan çox dən” ifadəsini qabartmaq idi. Çünki bu gün qarğıdalıya ölkəmizdə çox böyük ehtiyac var və bu məhsulun yetişdirilməsinin əsl ustaları da elə balakənli sahibkarlardır.

Sahibkarlardan söz düşmüşkən, rayon icra kakimiyyətinin başçısı İslam Rzayevlə söhbətimiz zamanı da sahibkarlara qayğı göstərilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə maraqlı məlumatlar eşitdik. İslam müəllim xatırlatdı ki, ölkə Prezidenti İlham Əliyevin kiçik və orta sahibkarlığın inkişafı üçün münbit şəraitin yaradılması, kənd təsərrüfatında islahatların genişləndirilməsi, yerli infrastruktur layihələrinin icra olunması, yeni istehsal və emal müəssisələrinin açılması, əhalinin məşğulluq səviyyəsinin artırılması ilə bağlı qarşımıza qoyduğu konkret vəzifələrin icrasının təmin edilməsi məqsədilə yaradılan rayon qərargahı 2017-ci ildə də öz işini səmərəli qurub. Rayon qərargahının müntəzəm keçirilən iclaslarında kənd təsərrüfatının inkişaf etdirilməsi, torpaqlardan səmərəli istifadə olunması, məhsul istehsalının artırılması, istehsalçılara dövlət dəstəyinin göstərilməsi, fermerlərə və torpaq mülkiyyətçilərinə təsərrüfatların qurulmasında kömək edilməsi kimi məsələlər müzakirə edilir. Rayonda torpaq mülkiyyətçilərinin texnikaya, mineral gübrələrə, toxuma və dərman preparatlarına olan tələbatının ödənilməsi sahəsində konkret qərarlar qəbul edilib və icrası təmin olunub.

Balakəndə baramaçılığın, tütünçülüyün və fındıqçılığın inkişaf etdirilməsi sahəsində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi məqsədi ilə ardıcıl işlər aparılır, rayon icra hakimiyyətində fəaliyyət göstərən komissiya tərəfindən fermerlərin, torpaq mülkiyyətçilərinin kənd təsərrüfatı işləri ilə bağlı problemləri vaxtında öyrənilir və onların texnikaya, mineral gübrələrə, pestisidlərə olan tələbatlarının ödənilməsinə lazımi kömək göstərilir. Barama və tütün istehsal edəcək, eləcə də yeni fındıq bağları salacaq istehsalçılar hələ ilin əvvəlindən müəyyən edilib, əkin aparılacaq sahələr müəyyənləşdirilib və şumlanaraq tütün, fındıq və digər






kənd təsərrüfatı bitkilərinin əkilməsi təmin edilib. Bu il rayonda 11,5 ton barama istehsal olunub ki, bu da keçən ilə nisbətən 3,7 dəfə çoxdur.

Tütünçülüyün inkişaf etdirilməsi ilə bağlı tütün əkiləcək torpaq sahələri və istehsalçılar hələ yazdan da qabaq müəyyən edilib, şitil ehtiyatının yaradılması üçün istixanalar hazırlanıb, həmçinin, emal müəssisələri olan “İntertabacco” MMC və “İlham” MMC ilə müqavilələrin bağlanması təmin edilib. 241 hektar sahədə Virciniya, 8 hektar sahədə Berley, 279 hektar sahədə isə İtiyarpaq növ olmaqla, cəmi 528 hektar sahədə tütün əkilib. Tütün əkilmiş sahələrin becərilməsi, suvarılması, istehsalçıların texnikaya, mineral gübrələrə olan tələbatının ödənilməsi, həmçinin, sahələrdə bitki xəstəliklərinə və zərərvericilərə qarşı mübarizə aparılması üçün tədbirlər görülüb. Hazırda təsərrüfatlarda tütün yarpaqlarının yığımı davam etdirilir.

Xatırlatmaq yerinə düşər ki, bu il Balakəndə “Pambıq və tütün istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına subsidiyanın verilməsi Qaydası”na uyğun olaraq 19 tütün istehsalçısına emal müəssisələrinə satdıqları yaş və quru tütünün miqdarına görə 4385,47 manat, 6 istehsalçıya 2016-cı ilin təkrar əkinlərinə görə 3784 manat vəsaitin ödənilməsi təmin edilib.

Həmsöhbətimiz qeyd etdi ki, rayonda fındıqçılığın inkişaf etdirilməsi sahəsində yeni bağlar salınması məqsədi ilə dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq sahələri müəyyənləşdirilib, 2264,2 hektar sahədə yeni fındıq bağları salınıb ki, onun da 662 hektarı cari ildə salınan bağlardır. Yeni salınmış fındıq bağlarının 1405.5 hektarı xüsusi, 509 hektarı bələdiyyə, 349.5 hektarı dövlət mülkiyyəti torpaqlarıdır.

Rayon icra hakimiyyətində yaradılmış qərargah torpaq sahələrindən səmərəli istifadə olunmasının təşkili ilə bağlı monitorinqlər aparıb və Xalatala, Hənifə, Talalar, Tülü, Qullar və Qaysa kəndlərində 189,95 hektar səmərəsiz istifadə olunan örüş və digər təyinatlı torpaq sahələri müəyyən edilib. Səmərəsiz istifadə olunan örüş və digər kənd təsərrüfatına yararlı sahələrin əkilməsi məqsədilə təyinatının dəyişdirilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında məsələ qaldırılıb. “Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda, çəltik, pambıq əkininə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları”na uyğun olaraq, istehsalçılara yardımların verilməsinin təşkili ilə əlaqədar 3924,5 hektar əkin sahəsinə görə 2333 istehsalçıya 219011,9 manat subsidiya hesablanıb və sənədlər respublika komissiyasına təqdim olunub.

Rayonda “ABAD” layihəsinin icrası nəticəsində sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına, rəqabətqabiliyyətli ailə təsərrüfatlarının və ixrac yönümlü milli ailə biznesi brendlərinin formalaşdırılmasına əlverişli şərait yaranacaqdır. Hazırda bu sosial layihənin pilot rayonu kimi seçilən Balakəndə icra edilməsi üçün “ABAD park” kompleksinin tikinti işləri başa çatmaq üzrədir. “ABAD” layihəsi çərçivəsində rayonda 12 ailəyə kənd təsərrüfatı məhsullarının emalı üçün müasir standartlara cavab verən zəruri istehsal avadanlıqları ilə təchiz edilmiş monoblok konteynerlər verilib. Konteynerlər istehsala hazır vəziyyətə gətirilərək, avadanlıqların istehsal keyfiyyətliliyi test edilib. Hazırda 8 ailədən müxtəlif növlərdə 44 ədəd cem və mürəbbə məhsullarının nümunəsi götürülərək sertifikatlaşdırılması üçün Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə göndərilib.

Cem-mürəbbə istehsalı ilə məşğul olan “ABAD”çılar ümumilikdə 6 tondan yuxarı məhsul istehsal ediblər. Həmin məhsulların sertifikatlaşdırılma işləri başa çatdırıldıqdan sonra qablaşdırılaraq satışına başlanacaqdır. Süd məhsullarının emalı üçün nəzərdə tutulan 2 konteynerdə və ət məhsullarının emalı üçün nəzərdə tutulan 1 konteynerdə “ABAD” publik hüquqi şəxsin nəzdində çalışan müvafiq sahələrin mütəxəssislərinin iştirakı ilə konteynerlərin istehsal avadanlıqlarının yoxlanılması, “ABAD”çılara istehsal prosesinin öyrədilməsi və məhsul nümunələrinin test edilməsi istiqamətində işlər davam etdirilir. Kənd təsərrüfatı məhsullarının emalı ilə yanaşı, tətbiqi xalq sənətkarlığı sahəsində çalışan 5 nəfər sənətkarımızın əl işlərinin “ABAD”ın Bakı şəhərində yerləşən sənətkarlıq mərkəzlərində satışı təşkil edilib.

Aqrar sektorun inkişaf etdirilməsi lə yanaşı, tikinti-quruculuq və abadlıq




işləri də daim diqqət mərkəzindədir. Şəhərdə 29 çoxmənzilli yaşayış binasında və binaların həyətlərində təmir işlərinin aparılması nəzərdə tutulub, artıq 16 binada təmir işləri qismən başa çatdırılıb. Şərif kəndində 360 şagird yerlik məktəbin, Sarıbulaq və Mahamalar kəndlərində müvafiq olaraq 20 və 10 yerlik modul tipli məktəblərin tikintisi davam etdirilib. Şəhərin Səttar Gözəlov küçəsində “Bayraq muzeyi”nin, Heydər Əliyev prospektində “ABAD-park” kompleksinin ikimərtəbəli binasının, Katex kəndində “Balxurma” MMC-nin qurutma sexinin və anbar binasının tikintisi davam etdirilir. Şəhərin Heydər Əliyev prospektində su xətlərinin dəyişdirilməsinə başlanılıb, həmin prospektin Qazbinə kəndi istiqamətində yolun hər iki tərəfində bardür və tamet daşları ilə səkilər düzəldilib, yaşıllıqlar salınıb.

Xidmət sahələrinin fəaliyyətindən danışan həmsöhbətim dedi ki, elektrik enerjisi ilə təminatın yaxşılaşdırılması sahəsində 32 transformator cari, 6 transformator əsaslı təmir edilib. Elektrik verilişi xətləri üzrə ümumilikdə 230-dan çox dayaq basdırılıb, 1,8 kilometr məsafədə SİP kabel çəkilib. Əhaliyə verilmiş qazın və elektrik enerjisinin dəyəri 100 faiz, içməli suyun dəyəri 91,7 faiz ödənilib.

Yazının sonunda daha bir fakt barədə söz açmaq istəyirəm. Amma bu məsələnin sosial-iqtisadi inkişafa, aqrar sektordakı uğurlara və ya, tikinti-abadlıq işlərinə qətiyyən dəxli yoxdur. Deyə bilərəm ki, bəlkə də, həmin işlərin heç birindən geri qalmayan bir addımdır.

Söhbət ondan gedir ki, avqustun 11-də rayonun Mərkəzi Xəstəxanasında qanvermə aksiyası keçirilirdi. Aksiyada rayonda fəaliyyət göstərən bütün idarə, müəssisə və təşkilatların işçiləri, gənclər, o cümlədən, ictimaiyyətin nümayəndələri yüksək həvəslə və könüllü olaraq iştirak edərək, qana ehtiyacı olan insanların köməyinə çatmaq üçün bu nəcib və humanist xarakterli aksiyaya qoşulmuşlar. Bu xeyriyyə aksiyasının keçirilməsində məqsəd talassemiyalı və hemofiliyalı xəstələrə yardım etməkdən ibarət idi. Mən həmin gün qan vermək üçün tibb işçisinin qarşısında əyləşən müəllim, məmur, polis, sahibkar, tələbə, traktorçu, bərbər, prokurorluq işçilərini görəndə qeyri-adi bir qürur hissi keçirdim. Onda yadıma düşən ilk fikirlərdən biri Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın sözləri oldu. Mehriban xanım bir tədbirdə demişdi ki, xeyirxahlıq hissi hər bir azərbaycanlının ürəyində vardır.

***İlqar HƏSƏNOV,***
***“Xalq qəzeti”nin***
***bölgə müxbiri***